# I AVROPA OYUNLARININ MEDALLARI AZƏRBAYCANIMIZI ÜRƏKLƏRDƏ YAŞADACAQ VƏ UCALDACAQDIR









***Hər ötən gün bizi paytaxtımızda keçiriləcək I Avropa Oyunlarına daha da yaxınlaşdırır. Əməkdaşımız, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində fəaliyyət göstərən “Azərsuvenir” MMC-nin direktoru Tariyel Ağayev ilə görüşüb, möhtəşəm idman tədbirinin layiqincə keçirilməsi istiqamətində rəhbərlik etdiyi kollektivin gördüyü işlər barədə oxucularımızda ətraflı məlumat yaratmaq üçün söhbət etmişdir.***

***Bu müəssisə “Bakı - 2015” I Avropa Oyunlarının vacib tərəfdaşlarından biridir. Oyunlar üçün nəzərdə tutulmuş bütün medallar dəsti, onların lentləri, qoruyucu qutuları, hətta iştirakçı ölkələrin dövlət bayraqları Azərbaycanda, məhz bu fabrikdə hazırlanmışdır. Respublikamızın müasir tipli müəssisələrindən olan “Azərsuvenir” MMC kollektivinin yeni dövr tarixində I Avropa Oyunlarının xüsusi yeri olacaqdır. Respublikamıza qonaq gələn bütün iştirakçı dövlətlərin idman nümayəndə heyətinin üzvləri Azərbaycandan medalsız getməyəcəkdir. Bu məqsədlə cənab Prezident İlham Əliyevin tövsiyəsi ilə xüsusi Xatirə medalları hazırlanmışdır, nümayəndə heyətlərinin hər bir üzvü Bakıdan əbədi xatirə olaraq həmin medallarla vətənlərinə qayıdacaqlar. Əminik ki, “Azərsuvenir”in xüsusi zövq və dostluq hissi ilə hazırladığı hər bir medal ancaq malik olduğu əyyarlıq göstəricisi ilə deyil, xoş duyğularla Azərbaycanımızı ürəklərdə yaşadacaq və ucaldacaqdır.***

* * *

- I Avropa Oyunlarının respublikamızda baş tutması çox diqqətəlayiq hadisədir. Belə bir möhtəşəm miqyaslı idman tədbirini keçirmək, ölkənin sosial-siyasi imkanlarının genişliyinin göstəricisidir. Müəssisəmizin kollektivi bu tarixi tədbirin işçi qrupunun tərkibində fəaliyyət göstərməkdən qürur duyur. Çox xoşdur ki, “Bakı - 2015” I Avropa Oyunları Təşkilat Komitəsinin sədri hörmətli Mehriban xanım Əliyevadır. Biz həmin oyunlara hazırlıqla bağlı bütün işləri həm yerli Təşkilat Komitəsi, həm də Avropa Olimpiya Komitəsinin işçi qrupları ilə sıx təmasda aparmışıq.

Qeyd edim ki, bizim bu işdə yaxından iştirakımız müəyyən mənada həm də peşəkarlıq imtahanı idi. Bizim müəssisəmiz yeni yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində fəaliyyət göstəririk. Amma bizim müəssisənin kökü, bazası keçmiş Zərgər-Sənaye İstehsalat Birliyinin əsasında qurulmuşdur. Bizim istehsalat avadanlıqlarımız ABŞ, Yaponiya, Almaniya, İtaliya məhsulu olsa da, mühəndis-texniki heyətin əsasını həmin idarənin təcrübəli kadrları təşkil edir. Buna görə də ilk vaxtlar bizim sahəyə tapşırılmış işlərin icrası baxımından Avropa Olimpiya Komitəsinin işçi qrupunun nümayəndələrində müəyyən inamsızlıq vardı, bizim qabiliyyətimizə əmin deyildilər. Yəni I Avropa Oyunlarının təltifləri və xatirə nişanları ilə əlaqədar götürülmüş öhdəliklərin vaxtında və keyfiyyətlə icra olunacağına şübhə ilə yanaşırdılar. Biz bunu hiss edirdik. Ancaq bütün bunlara rəğmən ölkəmizdə keçirilən tarixi bir hadisəni kənardan izləmək bizi qane etmirdi. Ona görə də müəssisəmiz tenderə qoşuldu, nümunələrimizi hazırlayıb komissiyaya təqdim etdik. Onlar bizim işlərimizi gördəndən sonra bütün təsəvvürləri alt-üst oldu. Özləri də etiraf etdilər ki, bu müəssisədə çox gözəl, yüksək keyfiyyətli medallar hazırlanıb. Gəlib müəssisəmizdəki şəraitlə yaxından tanış oldular, istehsalat sexlərini gəzdilər, ustalarımızla söhbət etdilər. Beləliklə, yüksək keyfiyyət və münasib maliyyə xərci prinsipləri əsasında tenderdə qalib gəldik. Əlavə edim ki, bu tenderə Rusiyanın “Adamas” şirkəti ilə yanaşı, bir neçə digər xarici müəssisələr də qoşulmuşdular. Bir sözlə, 2014-cü ilin dekabr ayında Təşkilat Komitəsi ilə müqavilə bağladıq və təcili sifarişlərin istehsalına başladıq. Bu il may ayının 18-də, vaxtından iki gün tez, müqavilə şərtlərinə uyğun bütün medal dəstlərini hazırlayıb təhvil verdik. Təhvil-təslim prosesində Avropa Olimpiya Komitəsinin işçi qrupunun rəhbəri mənə səmimi etiraf etdi ki, onuncu dəfədir Olimpiya oyunları hərəkatı çərçivəsində bu tipli işlərin icrasına nəzarət edirəm, gördüyüm bütün medalların hazırlıq göstəricilərinə görə sizin işləriniz ən gözoxşayanı və keyfiyyətlisidir. Medalların saxlanılması, qutularda yerləşdirilməsi istiqamətində zövqlə yerinə yetirdiyimiz işlər işçi qrupunu o qədər məmnun və razı salınmışdı ki, “Azərsuvenir”i gələcəkdə başqa ölkələrdə keçiriləcək irimiqyaslı idman tədbirlərində medalların istehsalçısı olan potensial müəssisələr sırasına daxil etmişlər. Kollektivimiz bunu I Avropa Oyunlarında respublikamızın ilk uğuru kimi qəbul edir.












Bu ilin mart ayında medalların təqdimat mərasimində “Adamas” şirkətinin də nümayəndələri iştirak edirdilər. Onlar eşidəndə ki, bu işləri Azərbaycanda yerli şirkət həyat keçirib, xeyli təəccübləndilər, gətirdikləri medalları bizim nümunələrlə yanaşı qoyub etiraf etdilər ki, doğrudan da, sizinkilər yaxşıdır. “Rəqabət aparan tərəflər olsaq da, təbriklərimizi qəbul edin”, - dedilər.

Medalların rəsmini azərbaycanlı rəssam Nərgiz Hüseynova işləyib, dizayn işində isə “Adamas”ın da nümayəndələrinin əməyi olub. Dizayn işləri bizə hazır göndərilmişdi. Burada milli ornamentlərimizə üstünlük verilib, bütün medalların bir üzündə Azərbaycan ornamentləri, məşhur nar təsvir olunub, medalların digər üzündə isə Avropa Olimpiya Komitəsinin loqosu bərq vurur. “Bakı - 2015” I Avropa Oyunları sözləri” tədbirə aid bizim hazırladığımız bütün atributlarda yer almışdır. Medalların qutularına qədər bütün zəruri işləri biz özümüz görmüşük, onlar bizim müəssisənin, Azərbaycan istehsalıdır.

I Avropa Oyunlarının bir özəlliyini də qeyd edim. Cənab Prezidentin tapşırığı belə olmuşdu ki, medallara layiq görülmüş idmançılarla yanaşı, ölkəmizə gəlib tədbirdə iştirak etmiş bütün idmançılara və onların məşqçilərinə mütləq xatirə medalı təqdim edilsin. Onların təsvirində təmçil olunduqları idman növünün loqosu, digər tərəfində isə “Bakı - 2015” I Avropa Oyunları sözləri” və uyğun loqo həkk olunmuşdur. Nümayəndə heyətlərinin üzvlərinə, rəsmi qonaqlara, dəvətlilərə isə yaraşıqlı döş nişanı veriləcəkdir.

Avropa Olimpiya Komitəsinin şərtlərinə, müvafiq müqavilə bəndlərinə uyğun olaraq hər medal müvafiq qiymətli metalla əyyarlaşdırılmışdır. Bütün medallar üçün qoruyucu qutular hazırlanıb. Medalların lentlərinə, iştirakçı dövlətlərin bayraqlarına qədər bütün zəruri işləri hazırlayıb təhvil vermişik.

I Avropa Oyunlarının heç zaman unudulmaması üçün gördüyümüz işlərə ürəyimizin hərarətindən pay qatmışıq. Onların hamısı bir amal ilə medallaşıb: “Azərbaycandan məhəbbətlə!”.

**Elçin VƏLƏDOĞLU,**
**“Respublika”.**